# Tamaşaçıların qəlbində əbədi yaşayacaq aktyor

**Çəkildiyi filmlərdə yaşayan görkəmli aktyorlarımızdan biri də Xalq artisti Mustafa Mərdanovdur. Sevə-sevə baxdığımız filmlərdə onun yaratdığı obrazları görüb daim onu xatırlayırıq.**



Xalq artisti Mustafa Mərdanovun həyat hekayəsi də elə çəkildiyi filmlər kimi maraqlıdır. Görkəmli aktyor 28 fevral 1894-cü ildə Cənubi Azərbaycanın Mərənd şəhərində anadan olub. Kiçik yaşlarında olarkən ailələri Tiflis şəhərinə köçüb. Balaca Mustafa 1924-cü ilə qədər həyatını burada yaşayıb. Atası Həşim kişi dünyagörmüş insan idi. Oğlunu ali təhsilli ziyalı kimi görmək istəyirdi. Ürəyində tumurcuqlayan bu arzusunu həyata keçirən ata oğlunu Tiflis gimnaziyasında təhsil almağa qoyur. İstəyir ki, övladı dünyəvi elmləri öyrənsin. Amma Mustafa teatra böyük maraq göstərirdi. Bu sahə sirli bir qüvvə ilə onu özünə çəkirdi. Şəhərin mədəni mühiti onun həyata baxışını formalaşdırır, gündən-günə teatra marağını artırırdı.

O dövrdə Tiflisdə müsəlman dram dərnəkləri fəaliyyət göstərirdi. Həmin dərnəklər balaca Mustafa üçün həm həyat, həm də sənət məktəbi idi. 1910-cu ildən bu dərnəklərdə çıxış edən gələcəyin görkəmli aktyoru Mustafa Mərdanovun həm həyat, həm də sənət təcrübəsi artırdı. Həyata, dünyaya baxışları formalaşırdı.

1917-ci ildə Tiflis gimnaziyasını bitirən Mustafa Mərdanov Rostov şəhərinə gedərək Tibb Universitetinə qəbul olur. Tibbi təhsil almaqla yanaşı, dram studiyasında çalışır. Amma nədənsə Rostov mühiti onu sıxır. Buna alışa bilmədiyinə görə bir il sonra - 1918-ci ildə yenidən Tiflisə qayıdır.

Sonra ali təhsil almaq arzusu ilə Moskvaya gedən gənc aktyor orada Dövlət Teatr Sənəti İnstitutuna qəbul olur. Burada məşhur sənətkarlardan aktyorluq peşəsinin incəliklərini öyrənir. Tiflis Azərbaycan Dram Teatrının direktoru vəzifəsində çalışır. 1924-cü ildə Moskva Dövlət Teatr Sənəti İnstitutunu bitirərək Bakıya gəlir və Azərbaycan Dövlət Dram Teatrında işləməyə başlayır. Beləcə, görkəmli aktyorun gələcək həyatının yeni mərhələsi başlayır.

Hər bir aktyorun səhnədə özünəməxsus xüsusiyyətləri olur. Başqalarından fərqli olan bu xüsusiyyətlər də onu tamaşaçılara sevdirir. Yüksək aktyorluq texnikası, yumşaq yumor hissi Mustafa Mərdanovun sənəti üçün çox xarakterik cizgilər idi. O, teatr səhnəsinə gəlişi ilə milli aktyorluq sənətimizi zənginləşdirərək ona yeni rəng və çalarlar qatır. Mustafa Mərdanov hələ teatrda işlədiyi vaxtlarda tez-tez filmlərdə çəkilməyə dəvətlər alır. "Bismillah" filmində Muzdur Qulu obrazı onun kinoda ilk rolu idi. Abbas Mirzə Şərifzadənin ilk rejissor işi olan bu film 1925-ci ildə ekranlara çıxıb. Bir il sonra isə ekranlara Aleksandr Litvinovun "Müxtəlif sahillərdə" filmi təqdim olunub. Aktyor bu filmdə Abbas rolunda çəkilib. O dövr üçün Mustafa Mərdanovun kinoda ilk böyük rolu isə "Hacı Qara" filmindəki Kərəməli olub. Sonralar aktyor "Sevil" filmində Atakişi, "Lətif" filmində Ələsgər, "İyirmi altı komissar"da menşevik rolunu böyük məharətlə oynayıb.

Onun qardaşı, kinorejissor Səməd Mərdanovun "Kəndlilər" filmi aktyorun yaradıcılığında yeni bir hadisə olub. O, bu filmdə bir-birinə zidd olan iki rolu - kəndli Təhməz və menşevik obrazlarını yüksək sənətkarlıqla yaradıb.

Şübhəsiz, böyük sənətkarın milli kinomuzda ən uğurlu rollarından biri bu gün də tamaşaçılar tərəfindən sevilə-sevilə baxılan "O olmasın, bu olsun" filmindəki "intelligent" Həsən bəy obrazıdır. Bu obraz Mustafa Mərdanovun yeni aktyorluq keyfiyyətlərini üzə çıxarıb. Sonralar "Əhməd haradadır" filmində oynadığı Məmməd kişi, "Qanun naminə"də Murtuzov rolları görkəmli səhnə ustasını daha da şöhrətləndirib. 1968-ci ildə çəkilən "Qanun naminə" filmindəki rolu aktyorun kinoda son işi olub.

1968-ci il dekabrın 12-də dünyasını dəyişən Mustafa Mərdanov Azərbaycan teatrının inkişafındakı xidmətlərinə, tamaşa və filmlərdə yaratdığı müxtəlif obrazlara görə Azərbaycan SSR Əməkdar artisti, Azərbaycan SSR-nin Xalq artisti fəxri adlarına, "Qırmızı Əmək Bayrağı" ordeninə, "Qafqazın müdafiəsinə görə" , "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medallarına layiq görülüb.

Anadan olmasının 130 ili tamam olan Xalq artisti Mustafa Mərdanov yüksək aktyorluq bacarığı, qəlblərə asanlıqla yol tapan incə yumoru, böyük maraqla baxılan filmlərimizdə yaratdığı yaddaqalan obrazları ilə daim Azərbaycan tamaşaçılarının qəlbində yaşayacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*